# Azərbaycan mədəniyyətinə aid nümunələr Meksikada nümayiş olunub

Meksikada fəaliyyət göstərən Diplomat Həyat yoldaşları Assosiasiyasının (ACD) təşkilatçılığı və paytaxtın mərkəzi Migel İdalqo munisipalitetinin dəstəyi ilə Mexiko şəhərində xeyriyyə məqsədli diplomatik yarmarka keçirilib.



AZƏRTAC xəbər verir ki, yarmarkada 40-dan çox ölkənin Meksikadakı diplomatik nümayəndəliyi milli mədəniyyətlərini, mətbəxini və musiqisini nümayiş etdirib. Bu məqsədlə hər bir ölkə üçün ayrılan masada milli suvenirlər, yeməklər və şirniyyatlar təqdim olunub. Azərbaycanın Meksika Birləşmiş Ştatlarındakı səfirliyinin yarmarkadakı guşəsində "Made in Azerbaijan" brendi altında istehsal edilən məhsullar, Azərbaycanın mədəniyyətinə, adət-ənənələrinə dair müxtəlif suvenirlər, kiçik xalçalar, eləcə də ölkəmizə aid müxtəlif təbliğat materialları sərgilənib və paylanılıb. Azərbaycan guşəsini ziyarət edənlər, həmçinin milli mətbəximizin ləziz nümunələri ilə tanış olublar.

Səfirliyin guşəsi ictimaiyyətin geniş marağına səbəb olub.

Yarmarkadan əldə olunan vəsait təşkilat tərəfindən xeyriyyə məqsədlərinə yönəldiləcək.

Azərbaycan. - 2023.- 17 may.- S.11.